***Erkən orta əsrlərdən Kür və Araz çayları arasında Azərbaycanın yerli türkdilli əhalidən ibarət mərkəzi bölgəsi kimi inkişaf edib formalaşan Qarabağda XVIII əsrin ortalarında eyni adlı güclü feodal dövləti yaranmışdır. Qarabağ xanlığı adlanan bu siyasi quruluş mövcud olduğu 1 əsrə yaxın müddətdə də baş vermiş mürəkkəb tarixi proseslərdə önəmli rol oynamış, salnamə ədəbiyyatında və xronikal mənbələrdə geniş iz buraxmışdır. Bu baxımdan "Qarabağnamələr" adı ilə tanınan salnamə səciyyəli əlyazmalar tarixi mənbələr sırasında mötəbərliyi və əhatəliyi ilə seçilir.***

# "Qarabağnamələr" Qarabağ xanlığının tarixi barədə mötəbər mənbədir





XIX əsrin birinci yarısında Qarabağ xanlığının tarixinə həsr olunmuş əsərlərdən Mirzə Adıgözəl bəyin və Mirzə Camalın "Qarabağnamələri" xüsusilə seçilir. İ.Petruşevski, S.Ağayan, V.Leviatov, Ə.Hüseynzadə, N.Axundov və bir sıra digər müəlliflər öz tədqiqatlarında "Qarabağnamələr"dən geniş istifadə etmişlər. V.Leviatov "Mirzə Adıgözəl bəyin tərcümeyi-halına aid materiallar" və Mirzə Adıgözəl bəyin "Qarabağnamə" əsərinə yazdığı müqəddimədə, Əli Hüseynzadə "Mirzə Camal Cavanşir və onun "Qarabağnamə"si və "XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı" əsərində, Ə.Şükürzadə isə "Əhməd bəy Cavanşirin tərcümeyi-halı" adlı yazısında "Qarabağnamələr"dən geniş istifadə etmiş və yeni düzəliş, əlavə və qeydlər etməklə onları daha da zənginləşdirmişlər.

Əli Hüseynzadə Mirzə Yusif Qarabağinin "Tarixi-safi", Mirmehdi Xəzaninin "Kitabi-tarixi Qarabağ" əsərlərini "XX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı" əsərində geniş təhlil etmiş, bu salnamə tipli əsərlərin məziyyətləri və çatışmazlıqlarını elmi baxımdan dəyərləndirmişdir. Ə.Şükürzadə "Qarabağ xanlığının siyasi quruluşu" və M.Mustafayev "Qarabağ xanlığının iqtisadiyyatı" dissertasiyalarında "Qarabağnamələr"dən geniş istifadə etmişlər. G.İsmayılovanın 1987-ci ildə müdafiə etdiyi "XIX–XX əsrin əvvəllərində Şuşa şəhərinin tarixi" adlı dissertasiyasında, Sevil Kərimovanın 1995-ci ildə müdafiə etdiyi "Çarizmin Azərbaycanın şimalında və müstəmləkəçiliyində Erməni siyasətçilərinin rolu" Vidadi Umudovun 1996-cı ildə müdafiə etdiyi "Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğal olunması və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1826-cı illər)" dissertasiyalarında da "Qarabağnamələr"ə də mötəbər elmi mənbə kimi istinad edilmişdir.

Nazim Axundov Mirzə Yusif Qarabağinin "Tarixi-safi", Mirmehdi Xəzaninin "Kitabi-tarixi Qarabağ", Rzaqulu bəy Mirzə Camal oğlunun "Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri", Mirzə Rəhim Fənanın "Tarixi-cədidi Qarabağ", Məmmədhəsən Baharlının "Əhvalati-Qarabağ", Həsən İxva Əlizadənin "Şuşa şəhərinin tarixi", Həsənəli Qaradağinin "Qarabağ vilayətinin qədim və cədid keyfiyyət və övzaları" əsərlərini "Qarabağnamələr"in ikinci kitabında nəşr etdirmiş, onlara ön söz yazmış və düzəlişlər etmişdir. Bundan əlavə, Nazim Axundov 1989-cu ildə "Qarabağ salnamələri monoqrafiyasını yazmışdır. Bu əsərdə müəllif "Qarabağnamələr"ə istinad edərək Qarabağın keçmişi və başlıca olaraq Qarabağ xanlığının siyasi tarixini, xanlığın iqtisadi, ictimai və mədəni həyatını ətraflı işıqlandırmışır. Həmin kitabda salnamələr və onların müəllifləri haqqında da ətraflı və sistemli məlumat verilir.

Qarabağ xanlığı tarixinin ilk salnaməçilərindən Mirzə Adıgözəl bəy və Mirzə Camal Cavanşir öz əsərlərində Cavanşir nəslindən olan Pənahəli xan, İbrahimxəlil xan və Mehdiqulu xanın dövründə baş verən hadisələrə dair geniş məlumat verirlər. Hər iki əsər Rusiya–İran və Rusiya–Osmanlı müharibələrinə dair ən mötəbər mənbələrdəndir. Əli Hüseynzadə qeyd edir ki, "İstər Mirzə Adıgözəl bəy, istərsə də Mirzə Camal həm Qarabağ xanlığında, həm də çar hökumətinin Qafqazdakı idarə işlərində yaxından iştirak etdiklərindən qələmə aldıqları hadisələrin bəzilərinin şahidi olmuşlar. Müəlliflər Qarabağın, o cümlədən Azərbaycanın Rusiya ilə birləşdirilməsinə (işğalına - Y.H.) müsbət münasibət bəslədiklərindən hadisələrin təsvir və şərhində Rusiya dövlətinə hüsn-rəğbətlərini ifadə etmişlər".

Mirzə Adıgözəl bəy və Mirzə Camal Cavanşir öz əsərlərində etiraf edirlər ki, onların qələmə aldıqları hadisələrin əsas hissəsi şəxsi müşahidələrə və habelə yaşlı adamların söylədiklərinə əsaslanır. V. Leviatovun yazdığına görə, Qarabağ xanlığı barədə ilkin salnamənin müəllifi Mirzə Adıgözəl bəy, təxminən, XVIII əsrin 80-ci illərinin əvvəllərində doğulmuş, 1848-ci il sentyabrın 9-da vəfat etmiş və Goranboy yaxınlığındakı Rəhimli kəndinin qəbiristanında dəfn edilmişdir. Adıgözəl bəy, öz tərcümeyi-halı barədə də müəllifi olduğu "Qarabağnamə"də müəyyən məlumat vermişdir.

Mirzə Adıgözəl bəy "Qarabağnamə"sini 1845-ci ildə yazmışdır. Əsərdə 1736-cı ildən başlayaraq 1828-ci ilə kimi Qarabağın siyasi tarixi əhatə edilir. 1845-ci ildə "Zakavkazskiy vestnik" qəzetinin 13 və 14-cü saylarında Qarabağ xanlığının tarixinə dair imzasız iki məqalə çap olunmuşdur. Məqalələrdə təsvir olunan hadisələrin ardıcıllığı və onlara verilən obyektiv qiymət göstərir ki, bunlar Mirzə Adıgözəl bəyin "Qarabağnaməsi"nin qısa icmalıdır.

Mirzə Adıgözəl bəyin "Qarabağnamə"si Azərbaycan dilində Qarabağ tarixi barəsində yazılan ilk əsərdir. Onun orijinalı Tiflis şəhərinin ümumi kitabxanasında saxlanılır. Mirzə Adıgözəl bəy Qarabağ xanlığında baş vermiş siyasi, iqtisadi və mədəni hadisələrlə yanaşı, alban-xristian xəmsə məlikləri və onların mənşəyi haqqında çox maraqlı məlumat verir. Təəssüf ki, onun bu etnik qruplar haqqında qeydləri bir sıra elmi ədəbiyyatda öz əksini tapmamışdır.

Müəllif "Xəmsə" adı ilə tanınan mahalların məlikləri haqqında yazır: "Bu mahalların biri Dizaqdır. Məlikləri Məlik Yegan adlanır. O, Loridən qaçıb gəlmiş, Nadir şahın səltənəti dövründə və onun əmrilə məliklik taxtına oturub hörmət qazanmışdır. İkincisi – Vərəndədir. Məlikləri Məlik Şahnəzərlilər olmuşdur. Onlar daha qədim bir nəslə mənsub və daha çox etibar sahibidirlər. Əsilləri də Göyçə əsilzadələrindəndir. Sonra oradan Qarabağa gəlib Vərəndə mahalının məliklik camından sərxoş olmuşlar. Üçüncüsü Xaçındır. Məlikləri Həsən Cəlalyan övladıdır… Bu ailə məliklik mənsəbindən məhrum olduqdan sonra, bu mahalın müstəqil bir məliyi olmamışdır...

Axırda mərhum Pənah xan Cavanşirin dövlət günəşi və şövkət bayrağı rəyasət üfüqündən baş vurub Qarabağ vilayətinin bütün sahəsini cəlal və dəbdəbə ilə işıqlandırdı. Bu zaman xındırıstanlı məlik Mirzə xan özünün gözəl iradə və sədaqətli əqidəsinə görə, bu əbədi dövlət məmurlarının əmrilə məliklik sikkəsini gümüş kimi saf olan adına kəsdirdi. Ondan sonra da oğlu Məlik Allahverdi və nəvəsi Məlik Qəhrəman "hər kəsin növbəti beş gündür" misrasını məzmunca məliklik bayrağını göylərə qaldırdılar. Dördüncü – Çiləbörd mahalıdır. Məlikləri Allahquludur. Əsilləri Maqavizdən gəlmədir. Bunlar gəlib Çiləbörddə məlik olmuş, Tərtər çayının ortasında ən möhkəm bir məmləkətdə yerləşmişlər. Çox çətin bir yolu olan Cermux (rəvayətə görə, Çiləbördün müxtəsər adıdır) qalasını özlərinə məskən, sığınacaq və mənzil etmişlər… Beşinci – Talış mahalıdır. Məlikləri Məlik Usubdur. Əsilləri Şirvandan gəlmədirlər. Bir müddət Talış kəndində sakin olmuşlar. Onlardan bir çoxu dəfələrlə məliklik etmişlər. Sonralar Məlik Usub Gülüstan qalasını zəbt edib orada sakin olmuşdur".

Ə.Hüseynzadənin yazdığına görə, V.Leviatov Mirzə Adıgözəl bəyin "Qarabağnamə"sini təhlil edərkən səhvə də yol vermiş, Mirzə Adıgözəl bəyin və Mirzə Camal Qarabağinin "Qarabağnamə"lərinin yazılma tarixini səhv salmış, heç bir əsas olmadan belə bir mühakimə irəli sürmüşdür ki, guya, Mirzə Adıgözəl bəy "Qarabağnamə"sini yazarkən Mirzə Camal bəy Qarabağinin "Qarabağ tarixi"ndən istifadə etmişdir. Lakin əsərin mətni ilə tanışlıqdan sonra məlum olur ki, Mirzə Adıgözəl bəy öz əsərini Mirzə Camal bəy Cavanşirdən iki il əvvəl - 1845- ci ildə yazmışdır. Mirzə Camal Cavanşir isə "Qarabağ tarixi" əsərini 1847-ci ildə yazıb başa çatdırmışdır. İ.Petruşevski də Mirzə Adıgözəl bəyin "Qarabağnamə" adlı salnaməsini, təxminən, 1847-ci ildə tərtib etməsini qeyd etməklə səhvə yol vermişdir.

Qeyd etmək lazımdır ki, Mirzə Adıgözəl bəy və Mirzə Camal bəy Cavanşir öz "Qarabağnamə"lərində istifadə etdikləri mənbələrin hamısını göstərmişlər. Hər iki əsərin mətni tutuşdurulduqda məlum olur ki, əsərlərdə təsvir edilən hadisələr eyni plan üzrə verilir, hər ikisində, əsasən, eyni faktlar təsvir olunur. Əgər belədirsə, onda Mirzə Camal Cavanşir "Qarabağ tarixi" salnaməsini yazarkən Mirzə Adıgözəl bəyin "Qarabağnamə"sindən istifadə edə bilərdi. Fikrimizcə, hər iki müəllif öz əsərini müstəqil şəkildə yazmışdır. Mirzə Adıgözəl bəyin "Qarabağnamə"sinin üzü 1848-ci ildə Tiflisdə Azərbaycan şairi Mirzə Şəfi Vazeh tərəfindən nəstəliq-şikəstə xətti ilə nəfis şəkildə köçürülmüşdür. Hazırda isə həmin əlyazma Peterburq şəhərindəki Şərqşünaslıq İnstitutunun kitabxanasında saxlanılmaqdadır.

Tarixi araşdırmalar sübut edir ki, Mirzə Adıgözəl bəyin "Qarabağnamə"si Peterburqa şərqşünas Xanıkovun təşəbbüsü ilə göndərilmişdir. Mirzə Adıgözəl bəyin "Qarabağnamə"si 12 fəsildən və "Əsərin müəllifi kapitan Mirzə Adıgözəl bəyin tərcümeyihalı" adlı sonuncu xüsusi bölmədən ibarətdir. Bu qiymətli əsərin hər bir fəsli Azərbaycan tarixşünaslığında özünəməxsus yer tutur. 1826–1828-ci illər Rusiya–İran müharibəsini Azərbaycan tarixşünaslığında ilk dəfə Mirzə Adıgözəl bəy təsvir etmişdir. Tarixçi bu müharibənin ən mühüm hadisələrini araşdırmış və onları xronoloji ardıcıllıqla qeyd etmişdir.

Mirzə Adıgözəl bəyin "Qarabağnamə"sində rusperəstlik aydın surətdə hiss olunur. O, Rusiya–İran müharibələrinin səbəb və nəticələri açıqlamır, 1804–1813 və 1826–1828-ci illər savaşlarının soyğunçu, qarətçi, işğalçı və müstəmləkəçi xarakterinə toxunmur. Halbuki, 1813-cü il oktyabrın 12-də Gülüstan kəndində və 1828-ci il fevralın 10-da isə Türkmənçay kəndində tərəflər arasında imzalanmış müqavilələrdə bu məsələ açıq şəkildə əksini tapmışdır.

"Qarabağnamə"də XVIII əsrin tarixi hadisələri hekayə xarakteri daşıyır. Ona görə ki, müəllifin özünün də göstərdiyi kimi, həmin məlumatları qocaların danışıqları əsasında toplamışdır. Əsərin XIX əsrə aid olan hissəsi daha dolğun və tarix üçün dəyərlidir. Müəllifin öz dövründə baş vermiş tarixi hadisələrin əsərdə geniş təsviri dolğun və çox qiymətlidir. Mirzə Adıgözəl bəyin "Qarabağnamə"si konkret tarixi faktlarla zəngindir. Müəllif böyük səy və gərgin əmək sərf edərək Qarabağın və qismən də Cənubi Qafqazın tarixinə aid sanballı tarixi materiallar toplamışdır. O, öz vətənini gələcək tarixi taleyini irəlicədən müəyyən edən hadisələrə, faktlara diqqətlə yanaşmışdır.

Belə hesab edirik ki, bu salnamədəki qüsurlar onun elmi dəyərinə ciddi xələl gətirmir. Həmin qüsurlar, əsasən, dövrün ictimai-siyasi şəraitinin və müəllifin həmin cəmiyyətdə tutduğu mövqeyinin bilavasitə nəticəsi hesab edilməlidir.

**(ardı var)**

***Yunis HÜSEYNOV,***
***tarix üzrə fəlsəfə doktoru***